Ədəbiyyat qəzeti

3 aprel 2021-ci il 29

# Zöhrə ƏSGƏROVA - 70



Hörmətli Zöhrə xanım!

Sizi - tanınmış yazıçı-publisisti yubileyiniz münasibətilə təbrik edirik.

Siz ədəbi fəaliyyətə ötən əsrin 70-ci illərində şeirlə başlamısınız. Tezliklə mətbuatda publisistik yazılarla da çıxış etmisiniz. "Ünsiyyət" adlı ilk kitabınız 1981-ci ildə oxuculara təqdim olunmuşdur. "İki tale", "Tənhalıq", "Özgə evin işığı", "Bir ömrə sığmayan arzular", "Mirvari toy", "Özəl poçtdan məktub var", "Talelərə yazılan musiqi", "Tarixi yaddaş və qondarma əhvalatlar", "Dünya, barışmışam səninlə" adlı kitablarınız maraqla qarşılanıb. Kitablarınıza toplanmış mənsur şeir, esse, fəlsəfi düşüncələrinizdə insan və cəmiyyət, şəxsiyyətin yetişməsi məsələləri sənətkar və zaman yanaşması, qadın problemi, yazıçının vətəndaş mövqeyi peşəkar qələmlə təqdim olunur.

Siz 1973-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirmisiniz. İncəsənət muzeyində, Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab satışı Komitəsində, "Yazıçı" nəşriyyatında, "Gənclik" Nəşriyyatında, "Ekspress" qəzetində işləmisiniz. Hazırda Gənclər və İdman Nazirliyinin baş məsləhətçisisiniz. 2018-ci ildə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmisiniz. Ədəbi uğurlarınıza görə Rəsul Rza mükafatına, Həsən bəy Zərdabi adına mükafata, Xan qızı Natəvan mükafatına və bir çox diploma layiq görülmüsünüz.

Hörmətli Zöhrə xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**